*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 17-24*

https://doi.org/10.62837/2025.7.17

**MƏMMƏDOVA JALƏ RAFIQ QIZI**
*Azərbaycan Dillər Universiteti*
*Filologiya üzrə fəlsəfə doktoru*
Jallxann@gmail.com

# İNGİLİS DİLİNDƏ PREDİKATİV SÖZLƏRİN LEKSİK MƏNA VƏ STRUKTUR XÜSUSİYYƏTLƏRİ

**Açar sözlər: predikativlik, sintaktik struktur, leksik analiz,identifikasiya, tipoloji müqayisə**
**Ключевые слова: предикативность, синтаксическая структура, лексический анализ, идентификация, типологическое сопоставление**
**Key words: predicativity, syntactic structure, lexical analysis, identification, typological comparison**

İnsan danışıq qabiliyyəti ilə bərabər yaranmışdır. Dil yalnız ünsiyyət vasitəsi deyil, həm də bir millətin ruhu, yaddaşı, tarixi və gələcəyidir. Biz fikirlərimizi, hisslərimizi, hətta xəyallarımızı dil vasitəsilə formalaşdırır və bölüşürük. Dil düşüncə tərzimizi formalaşdırır, dünyanı necə dərk etdiyimizi göstərir. Məhz bu səbəbdən dilçilik elminin əsas məqsədi — dili öyrənməklə insanı və cəmiyyəti daha dərindən anlamaqdır. Bir xalqın dili onun kimliyidir. Dilçilik isə bu kimliyi qoruyan və gələcək nəsillərə ötürən fundamental bir elmdir. İnsanların dilə ehtiyacı, demək olar ki, həyatın bütün sahələrində özünü göstərir. Cəmiyyət üzvlərindən bircə gün belə dilə müraciət etməyən, sözlərlə fikirləşməyən və ya dinib-danışmayan adama rast gəlmək qeyri-mümkündür. [2, s 297]

Beləliklə dil – fikrin səsi, insan ruhunun sözə çevrilmiş aynasıdır. Hər bir söz bu aynada bir parıltıdır. Bu parıltılar arasında isə elələri var ki, cümləyə can verir, onu danışdırır, onu hərəkət etdirir. Bu canlılıq mənbəyi olan sözlərdən biri də predikativ sözlərdir. Onlar cümlənin qəlbi, nəfəsidir – cümlənin xəbəri kimi çıxış edərək fikrin tamlığını təmin edir. Məhz buna görə predikativ sözlərin leksik və məna xüsusiyyətləri, dilçilik elminin sintaksis, leksikologiya və semantika sahələrində mühüm yer tutur. Dil sistemində cümlə əsas kommunikativ vahid kimi çıxış edir və cümlənin əsas funksiyası tam fikrin ifadəsidir. Bu funksiyanı təmin edən əsas amil isə cümlənin predikativliyi – yəni mübtəda ilə xəbər arasında məntiqi və qrammatik əlaqənin qurulmasıdır. Predikativ anlayışı bu baxımdan dilin həm struktur, həm də məna səviyyələrində mühüm rol oynayır. Dilçilikdə predikativlik anlayışı cümlə strukturunun əsas semantik və sintaktik elementlərindən biri kimi çıxış edir. Predikativlik dedikdə, subyektin və ya obyektin hərəkət, vəziyyət, keyfiyyət və ya şəxsiyyət baxımından izah olunması nəzərdə tutulur. Bu funksiya isə predikativ

sözlər vasitəsilə reallaşır. Predikativlik cümləyə semantik tamlıq qazandırır, fikrin ifadəsində əsas yükü daşıyan hissə olur. Bu məqalədə predikativlik anlayışı, onun əsas xüsusiyyətləri, predikativ sözlərin leksik və qrammatik xüsusiyyətləri, onların cümlə strukturundakı rolu, müxtəlif dillərdə ifadə formaları və tədqiqatçıların bu sahəyə verdiyi töhfələr araşdırılır.

İngilis dilində cümlə strukturunun əsas komponentlərindən biri olan "predikativ sözlər" nitqin düzgün və mənalı formalaşmasında mühüm rol oynayır. Predikativ sözlər adətən cümlənin xəbər hissəsində yerləşir və subyektin və ya obyektin kimliyi, vəziyyəti və ya keyfiyyəti barədə məlumat verir. Bu sözlər sintaktik baxımdan komplement funksiyasını yerinə yetirsə də, onların leksik mənası cümlənin semantikasını formalaşdıran əsas amillərdən biridir. Predikativlərin quruluş xüsusiyyətləri və leksik mənaları bu məqalənin əsas tədqiqat predmetidir. Sözün leksik məna xüsusiyyəti dedikdə, onun sözlük mənası, hansı anlayışı ifadə etdiyi, və o mənanın hansı kontekstdə necə işlənə biləcəyi nəzərdə tutulur.

İngilis dilində predikativ anlayışından və funksional rolundan danışarkən qeyd etmək lazımdır ki, **"predicative"** — subyekt və ya obyektin müəyyən xüsusiyyətlərini, şəxsiyyətini, vəziyyətini və s. göstərən nitq vahididir. Bu sözlər əsasən "**linking verb"** (bağlayıcı fel) ilə birgə işlənir və cümlənin mənasının tamamlanmasında əsas rol oynayır.

**Məsələn:** *She ıs happy.* — burada "happy" sözü subyektin vəziyyətini bildirən predikativ funksiyasındadır.

Predikativ sözlər ingilis dilində həm leksik, həm də struktur baxımından dilin semantik tamlığını təmin edən əsas elementlərdən biridir. Onlar subyektin və obyektin kimliyi, vəziyyəti və xüsusiyyətlərini ifadə etməklə, cümlənin funksional və informativ yükünü daşıyır. Bu sözlər müxtəlif nitq hissələrindən ibarət ola bilər və qeyd etdiyimiz kimi "linking verbs" vasitəsilə cümləyə daxil olur. Azərbaycan dili ilə müqayisəli təhlil, predikativlərin struktur xüsusiyyətlərini daha dərindən anlamağa yardım edir. İngilis dilində predikativ sözlər cümlənin əsas xəbər hissəsini təşkil edərək mübtəda haqqında əlavə məlumat verir. Onlar leksik baxımdan müxtəlif söz növlərində ola bilər (sifət, isim, feli sifət, əvəzlik və s.), struktur baxımından isə əsasən "to be" və digər bağlayıcı fellərlə işlənir. Predikativ sözlər müxtəlif leksik kateqoriyalara aid ola bilər. Onların leksik mənası subyekt və ya obyektə aid olan məlumatın növünü müəyyən edir. Bildiyimiz kimi leksik məna, bir sözün cəmiyyət tərəfindən qəbul edilən və istifadə edilən anlayışını bildirir. Semantik dəyərə sahib olma yəni məzmunluluq, əlaqəlilik, çoxmənalılıq, qeyri-sabitlik, kontekstə bağlılıq və eləcə də milli-mədəni xüsusiyyətlər leksik mənanın əsas meyarları hesab edilir. Leksik xüsusiyyətlərdən danışarkən sözün nə mənaya gəldiyi — yəni onun leksik məzmunu — predikativin hansı tip funksiyanı daşıyacağını müəyyən edir.

**Məsələn:** *He is tired* – "tired" sifətdir xüsusiyyət bildirir
*She became a doctor* – "a doctor" isimdir kimlik bildirir

Yəni predikativ söz hansı nitq hissəsinə aid olursa, həmin nitq hissəsinin semantik yükünü cümləyə gətirir. Struktur xüsusiyyətləri araşdırarkən sözün cümlədə necə qurulduğu, yerləşdiyi, hansı feillə işlədiyi və başqa sözlərlə əlaqəsi onun funksiyasını müəyyənləşdirir. Struktur düzgün qurulmasa, leksik məna da öz funksiyasını itirə bilər.

**Məsələn:** *The room looks clean* struktur: subyekt + linking verb + sifət
*We elected him leader* struktur: obyekt + obyekt predikativi

İngilis və Azərbaycan dillərində predikativlər əsasən isimlər (substantivlər) və isim ifadələri ilə təqdim olunur və onların identifikasiya və klassifikasiya funksiyaları böyük rol oynayır. İsimlər predikativ olaraq işlənəndə, əsasən iki vacib funksiya həyata keçirilir: İdentifikasiya funksiyası: İsimlər kimi predikativlər subyekti müəyyən bir kimlik və ya xüsusiyyət ilə əlaqələndirir. Bu zaman predikativ söz subyektin hansı kateqoriyaya aid olduğunu göstərir.

**Məsələn:** *She is a doctor.*

Burada "doctor" (həkim) subyekti identifikasiya edir və onun peşəsini müəyyən edir. Bu, subyektin kim olduğunu izah edir.

**Məsələn:** *He is a teacher.*

Bu cümlədə isə "teacher" (müəllim) subyektin peşə kateqoriyasını göstərir. İdentifikasiya funksiyası həmçinin müəyyən bir qrup və ya kateqoriya ilə əlaqələndirməyi təmin edir. Məsələn, əgər bir şəxs "həkim" və ya "müəllim" olaraq tanıdılırsa, o zaman bu predikativlər həmin şəxsin peşəsini və ya kimliyini aşkar edir.

İdentifikasiya funksiyasından fərqli olaraq , klassifikasiya funksiyası ilə predikativlər, subyekti daha geniş bir kateqoriyaya daxil edir. Yəni, predikativ söz vasitəsilə subyekt bir qrupa aid edilər və bu qrup müəyyən xüsusiyyətlərə sahib olur.

**Məsələn:** *This is a car.*

Burada "car" (avtomobil) subyekti məhsul kateqoriyasına daxil edir, yəni o, "nədir" sualına cavab verir və bir nəqliyyat vasitəsi kimi təsnif edilir.

**Məsələn:** *They are students.*

Bu cümlə isə "students" (tələbələr) predikativini istifadə edərək subyekti tələbə qrupuna aid edir, yəni bu şəxslər bir təhsil kateqoriyasına daxil edilir. Klassifikasiya funksiyası həmçinin obyekt və ya subyekti bir qrup və ya kategoriya ilə əlaqələndirir, beləliklə, bu predikativlər daha geniş qrupları təmsil etməyə kömək edir.

Bu sahədə dilçi alimlərin fikirləri müxtəlif nəzəri yanaşmalara əsaslanır və bu anlayış dilin həm sintaktik, həm də semantik aspektlərində əhəmiyyətli yer tutur. Bu sahədəki nəzəri yanaşmaların zənginliyini göstərmək üçün görkəmli dilçi alim Otto Yespersenin fikrini göstərə bilərik. O, predikativlik anlayışını geniş şəkildə təhlil edən ilk dilçilərdən biri olaraq "subyektin hansısa vəziyyətdə və ya xüsusiyyətdə təqdim edilməsi" **(Predicate is the bearer of the action or state expressed in the sentence)**

kimi izah edir. Onun fikrincə, predikativ struktur dilin ən əsas kommunikativ

vahididir. [7] Predikativlərin cümlə strukturunda funksiyasından danışarkən onların həm identifikasiya, həm də klassifikasiya funksiyası, bağlayıcı fel (linking verb) ilə isimlər və ya isim ifadələri arasında əlaqə quraraq həyata keçirilir. Bu cür predikativlər cümlənin mərkəzində yerləşir və subyekti müəyyən bir kateqoriyaya aid etməklə cümlənin mənasını tamamlamağa xidmət edir.

**Məsələn:** *The cat is an animal.* Predikativ: *an animal* Funksiya: Subyekt (cat) animal kateqoriyasına daxil edilir.

*He is my brother.* Predikativ: *my brother* Funksiya: Subyekt (He) öz kimliyini "brother" olaraq göstərir, yəni identifikasiya edir.

Verilmiş misallara əsaslanaraq nəticə olaraq qeyd olunmalıdır ki, isimlər kimi predikativlər subyektin bir kateqoriyaya daxil olmasını təmin edir. Bu, həm identifikasiya, həm də klassifikasiya funksiyalarını yerinə yetirərək cümlənin mənasını dəqiqləşdirir və daha aydın hala gətirir. İsimlər və isim ifadələri predikativ olaraq işlədildikdə, onlar kimlik, peşə, hüquq və ya xüsusiyyətlər kimi bir çox digər aspektləri müəyyən edə bilirlər.

Sifət predikativlər subyektin və ya obyektin xüsusiyyətini, emosional vəziyyətini və ya fiziki durumunu bildirərək, cümlədə əsasən xəbər funksiyasını yerinə yetirir. Bu növ predikativlər semantik baxımdan xüsusiyyət bildirici “qualitative” leksik vahidlərdir. Əsas xüsusiyyətləri xəbərlik funksiyası daşıması (hava soyuqdur), Hal və vəziyyət bildirməsi (mən xoşbəxtəm), kəmiyyətcə və keyfiyyətcə xüsusiyyət bildirməsi (otaq genişdir) və.s. Sifətlərlə yanaşı bəzi hallarda zərflər də predikativ (xəbər) funksiyasında çıxış edə bilər. Bu, xüsusilə yer və zaman bildirən zərflərdə müşahidə olunur.

**Məsələn:** *The book is here. The concert was yesterday.*

Burada “here” və “yesterday” zərfləri predikativ funksiyanı yerinə yetirir, lakin struktur baxımından bu tip predikativlər daha çox “adverbial predicatives” adlanır. Bu hallarda zərf feil kimi hərəkət bildirmir, amma cümlənin əsas informasiyasını daşıyır. Onunla birlikdə işlənən köməkçi fel (“dir”, “idi”, “olacaq” və s.) xəbəri tamamlayır. Mübtəda ilə əlaqə qurur. Bu cür predikativ zərflər xüsusən sadə nominal cümlələrdə, hallar və vəziyyətlərin təsvirində geniş istifadə olunur.

Dilçilikdə predikativlik dilin universal sintaktik və semantik kateqoriyalarından biridir. İngilis dilində predikativlik bağlayıcı feillər və predikativ sözlər vasitəsilə ifadə olunaraq cümlənin mənaca tamamlanmasını təmin edir. Predikativ sözlərin həm leksik, həm də struktur xüsusiyyətləri onların cümlə daxilindəki funksional rolunu müəyyənləşdirir. Müxtəlif dillərdə bu kateqoriya müxtəlif yollarla ifadə olunsa da, əsas funksiyası — subyekt və ya obyektin identifikasiyası və təsviri olaraq qalır. Predikativlərin struktur quruluşu onların sintaktik və funksional xüsusiyyətlərini müəyyən edir. Bu struktur müxtəlif yollarla ifadə oluna bilər. Tək bir sözlə ifadə olunan sadə predikativlər, predikativlik funksiyasını yalnız bir leksik vahid vasitəsilə

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 17-24*

yerinə yetirən predikativlərdir. Yəni bu predikativlər bir söz şəklində olub, subyektin vəziyyətini, keyfiyyətini, kimliyini və ya halını bildirir. [3,s 110]

**Məsələn:** She is strong. It became obvious.

Bağlayıcı fellərlə birlikdə işlənərək cümlənin əsas predikativ strukturunu təşkil edən predikativlər müxtəlif nitq hissələrini əhatə edirlər. İngilis dilində predikativlər təkcə isim və sifətlərdən deyil, müxtəlif nitq hissələrindən ibarət ola bilər. Onlar cümlədə subyektin vəziyyətini, keyfiyyətini, kimliyini və ya yerini ifadə edirlər. Subyektin və ya obyektin vəziyyətini, halını və ya keyfiyyətini daha təfərrüatlı və struktur cəhətdən mürəkkəb formada ifadə edən konstruksiyalar obrazlı predikativ strukturlar və ya kompleks predikativlər adlanır. Onlar bir neçə komponentdən ibarət olur və cümlənin predikativ mənasını daşıyır. Kompleks obyekt predikativləri əsasən iki hissədən ibarət olur: obyekt + predikativ. **Məsələn:** *We elected him chairman.*
*They painted the house white.*

Burada "chairman" və "white" obyektin yeni vəziyyətini göstərən predikativlərdir. Semantikada rolundan bəhs edərkən qeyd etmək lazımdır ki, məna baxımından predikativ sözlər semantik əlaqə yaradan körpü funksiyasını daşıyır. Mübtəda ilə predikat arasında semantik bağ quraraq fikrin tam ifadəsinə imkan yaradaraq cümlədə məna tamlığını təmin edir. Onlar mübtədanın kimliyini, vəziyyətini, halını ifadə edərək cümlənin əsas informativ yükünü daşırlar. Semantik baxımdan, predikativ ifadələr mübtədanın ona aid xüsusiyyətləri və ya vəziyyəti qeyd etməsinə imkan yaradır və beləliklə onlar cümlənin məna strukturunda vacib elementi təşkil edirlər. [6]

**Məsələn:** *Mübtədanın halını və vəziyyətini (She is tired),*
*Onun kimliyini və ya peşəsini (He is a doctor),*
*Məxsusluğunu və ya şəxsə aidliyini (It is mine),*
*Yeri və mövqeyini (The pen is on the table),*
*Əvvəlki haldan fərqli vəziyyətə keçidi (She became angry) ifadə edə bilər.*

Sintaktik baxımdan predikativ sözlərin funksiyası cümlənin əsas üzvlərindən biri olan xəbərin (predikatın) tərkib hissəsi kimi araşdırılır. Onlar əsasən "to be", "seem", "become", "remain" və s. kimi bağlayıcı fellərlə birgə işlənirlər:

**Məsələn:** *She became nervous. He is a student. They seem ready.*

Bu strukturda predikativ söz, verbal olmayan predikatın əsas yükünü daşıyır və cümlənin əsas informativ mərkəzi hesab olunur. Müxtəlif dillərdə predikativ konseptlər fərqli söz növlərinə aid edilə bilər. və bu predikativ konstruksiyaların fərqlərini öyrənmək üçün əsasdır. Müqayisəli dilçilikdə məsələn Azərbaycan dili ilə ingilis dili arasında predikativ strukturların quruluşunda fərqlər mövcuddur.

**Məsələn:** *O müəllimdir.- He is a teacher.*

Burada "dir" ilə "is" funksional olaraq eyni məqsədə xidmət etsə də, leksik şəkildə fərqli təqdim olunur. Bu cür müqayisələr tipoloji və areal dilçilik üçün xüsusi əhəmiyyət daşıyır. Müqayisə üçün qeyd etmək lazimdir ki, ingilis və Azərbaycan

dillərində predikativ funksiyalar semantik baxımdan oxşar olsa da, struktur baxımdan əhəmiyyətli fərqliliklər mövcuddur. [1, s.255]

| | ***İngilis dili*** | ***Azərbaycan dili*** |
|---|---|---|
| *Fel vasitəsi:* | *"to be" mütləqdir* | *Fel bəzən düşür: "O müəllimdir" vs "O müəllim"* |
| *Söz sırası:* | *Subyekt – fel – predikativ* | *Subyekt – predikativ – fel* |
| *Struktur sərtliyi:* | *Qrammatik qaydalara daha ciddi riayət olunur* | *Daha sərbəstdir* |

Bu fərqlər predikativ anlayışının iki dildə öyrədilməsi zamanı metodoloji yanaşmalarda öz əksini tapır. Struktural və tipoloji fərqləri aydınlaşdırmaq üçün mühüm bir analiz obyekti təşkil edir.  Müxtəlif dillər arasında formal, funksional və leksik müxtəlifliklər ortaya çıxır ki, bu da öz növbəsində tipoloji tədqiqatlar sayəsində dillərin predikativ sistemlərinin universal və fərdi aspektlərini aydınlaşdırır. Beləliklə predikativ anlayışı sintaksis və semantikanın kəsişmə nöqtəsində duran, dilin funksional strukturunda mühüm yer tutan kateqoriyadır. O, cümlənin informasiya daşıyıcısı kimi funksiyasını yerinə yetirən əsas vahidlərdən biri olaraq, dil sisteminin funksional bütövlüyünü təmin edərək cümlə tipologiyası, kommunikativ məqsəd, modallıq və ifadə forması kimi vacib sahələrdə istifadə olunur. O, dilin digər kateqoriyaları ilə qarşılıqlı əlaqədə olmaqla, danışanın mövqeyini, ifadənin reallıq dərəcəsini və cavabdehlik münasibətini də müəyyənləşdirir.

Dil, insanın ən ali ifadə vasitəsidir. Onun quruluşunda predikativ sözlər dilin canlı damarları kimi axıb keçir. Onlar fikrin tamlığını, cümlənin quruluşunu və mənanın formalaşmasını təmin edir. Predikativ sözlər – həm leksik, həm də semantik baxımdan dilçiliyin vacib təhlil obyektidir. Onları anlamaq – dili anlamaq, dili anlamaq isə insanı, mədəniyyəti və düşüncəni anlamaq deməkdir. Dil özündə keçmişi, bu günü və gələcəyi daşıyan bir körpüdür. Dilçiliyin missiyası isə bu körpünü qorumaq, inkişaf etdirmək və daha da möhkəmləndirməkdir. İnsan danışdığı müddətcə dil yaşayacaq və dil yaşadıqca – dilçilik elmi öz aktuallığını heç vaxt itirməyəcək.


## Xülasə

### İngilis dilində predikativ sözlərin leksik məna və struktur xüsusiyyətləri

Bu məqalədə ingilis dilində predikativ sözlərin leksik və struktur xüsusiyyətləri təhlil olunur. Predikativ sözlər cümlənin xəbəri kimi çıxış edərək subyektin vəziyyəti, kimliyi və xüsusiyyətlərini ifadə edir. Məqalədə həmçinin predikativlərin

identifikasiya və klassifikasiya funksiyaları da izah olunur. İngilis və Azərbaycan dilləri arasında predikativ strukturların sintaktik və morfoloji fərqləri müqayisəli şəkildə araşdırılır. Predikativ sözlərin semantik və funksional yükü onların cümlədə əsas informativ vahid kimi rolunu göstərir. Bu tədqiqat, predikativ anlayışının dilçilikdəki əhəmiyyətini və müxtəlif dillərdə ifadə formalarını ortaya qoyur.

**JALA MAMMADOVA**

**SUMMARY**

**LEXICAL MEANING AND STRUCTURAL FEATURES OF PREDICATIVE WORDS IN THE ENGLISH LANGUAGE**

This article explores the lexical and structural features of predicative words in the English language. Predicatives serve as the core of the sentence by expressing the subject's identity, state, or qualities. The study emphasizes the dual functions of predicatives—identification and classification—within sentence structures. A comparative analysis is provided between English and Azerbaijani, highlighting key syntactic and morphological differences. Predicatives are shown to play a crucial semantic role by completing the meaning of the sentence. Overall, the article underscores the significance of predication in understanding linguistic structure and meaning across languages.

**РЕЗЮМЕ**

**ЛЕКСИЧЕСКОЕ ЗНАЧЕНИЕ И СТРУКТУРНЫЕ ОСОБЕННОСТИ ПРЕДИКАТИВНЫХ СЛОВ В АНГЛИЙСКОМ ЯЗЫКЕ**

В данной статье рассматриваются лексические и структурные особенности предикативных слов в английском языке. Предикативы играют центральную роль в предложении, выражая идентичность. Эти слова могут принадлежать к различным частям речи, включая существительные, прилагательные и наречия. В исследовании подчёркиваются две основные функции предикативов — идентификация и классификация — в структуре предложения. Представлен сравнительный анализ с азербайджанским языком, в котором выделены ключевые синтаксические и морфологические различия. Предикативы выполняют важную семантическую функцию, завершая смысл предложения. В целом, статья подчёркивает значимость предикации для понимания языковой структуры и значения в разных языках.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 17-24*

## Ədəbiyyat siyahısı

1.A.Axundov "Dilçiliyin tarixi,nəzəriyyəsi və metodları- Ümumi dilçilik" Bakı Şərq-qərb 2006, 273 s
2.A.Qurbanov "Ümumi dilçilik" I cild. Azərbaycan Milli Elmlər Akademiyası, Baki 2019/456 s.
3.Q.Ş.Kazımov "Müasir Azərbaycan dili sintaksis" Bakı Təhsil 2000, 496s
4.Biber, D. et al. Longman Grammar of Spoken and Written English. Pearson Education. (1999).
5.Crystal, D. The Cambridge Encyclopedia of the English Language. Cambridge University Press. (2003).
6.Huddleston, R., & Pullum, G. K. The Cambridge Grammar of the English Language. Cambridge University Press. (2002).
7.Otto Yesperson "The philosophy of grammar" /Chicago Press 1992/ p.363
8.Quirk, R., Greenbaum, S., Leech, G., & Svartvik, J. A Comprehensive Grammar of the English Language. Longman. (1985)

**Rəyçi: professor Çingiz Qaraşarlı**